# Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin Bəyanatı

2025-ci ilin may ayının 25-də baş vermiş bir hadisə haqqında bu günlərdə bizə məlumat daxil olmuşdur. Orada irəli sürülən cəfəngiyatı şərh etmək xahişi ilə bizə müraciət edən Azərbaycan Demokrat Firqəsi üzvlərinə, dostlara və tərəfdarşlara tanınmış şairimiz Abbas Səhhətin tərcüməsi və İ.Krılovun sözləri ilə deməliyik ki

Dəcəl Meymun, çolaq Ayı, çəp Keçi
Bir ulağa yoldaş oldu hər üçü.
Dörd səslicə bir musiqi nəğməsi,
Çalmağa həmahəng oldu cümləsi.

ADF-yə heç bir dəxli olmayan şəxslərin 3-4 nəfərdən ibarət qruplarla plenumlar keçirməsi, seçkilər etməsi, qərarlar alması kimi istəkləri yalnız bu misraların ironiyası ilə şərh etmək olar. Bu şəxsləri biz tanıyırıq, onların ADF-nin heç bir təşkilatına üzvlüyü olmadığını bəyan edirik. Yanlış yolda olduqları barədə onlara xəbərdarlıq edilib.

Azərbaycan Demokrat Firqəsinin şanlı tarixinə, barışmaz mübarizəsinə kölgə salmaq istəyənlər həmişə çox olub, indi də çoxdur.

ADF bu gün 3-4 nəfərlə plenum keçirəcək qədər zavallı halda deyil və heç vaxt da olmayıb. ADF plenumları yalnız həyati problemlərin, ideoloji müzakirələrin, "Azadlıq, Ədələt və Milli Hökumət" yolunda əhəmiyyətli addımların atılması məqsədi ilə keçirilə bilər və lazımi hallarda ADF bunu elan edəcəkdir.

Tərəfdarlarımızın diqqətli olmasını istəyirik. ADF adından konfrans keçirənlər, plenum, qurultay keçirənlər və ya nazirlər kabineti təşkil edənlərin "şəkilinə"

deyil mahiyyətinə diqqət edin. Kürsüyə çıxıb nə danışdıqlarına, irəli sürdükləri şuarlara diqqət yetirin. Bu gün, əgər “Azadlıq, Ədalət və Milli Hökumət” şuarı ilə irəlidədirlərsə, deməli bizdəndirlər. Yox, əgər kimliyi şübhəli olan bu kəsləri plenum və qurultaylar maraqlandırırsa, təfriqə və ixtilaflar yaradırsa, dastan və rəvayətlər yayırsa, ictimai rəyi pozmağa çalışırsa, deməli bizdən deyillər, təxribatçıdılar və düşmənə qulluq edirlər.

**ADF-nin Siyasi Heyəti**
**30 may 2025**